## TARİYEL MÜELLİMİN TERCEME-İ HALİ

*Həsənov Tariyel Bilal oğlu*

1941-ci ildə Əli Bayramlı rayonunun Polad-Toğay kəndində anadan olmuşdur. 1958-ci ildə Əli Bayramlıda orta təhsilini başa vurmuşdur.

1963-cü ildə Azərbaycan Dövlət Universitetinin Şərqşünaslıq fakültəsinin ərəb şöbəsini bitirmişdir. 1962 – 1971-ci ilərdə Azərbaycan Radio və Televiziya Verilişləri Komitəsi ərəb redaksiyasının diktoru işləmişdir.

1971-1987-ci illərdə Azərbaycan Elmlər Akademiyası Şərqşünaslıq İnstitutunda kiçik elmi işçi, baş elmi işçi, şöbə müdiri vəzifələrində çalışmışdır. 1971-ci ildə tarix elmləri namizədi elmi dərəcəsini almışdır. İraqın müasir tarixinə və islam dini məsələlərinə dair bir monoqrafiyanın, otuzdan çox məqalənin, bir neçə əlyazmanın, habelə "Quran"ın ərəbcədən tərcüməsinin müəllifidir.

1966-1967-ci illərdə Yəmən Ərəb Respublikasında, 1973-1977-ci və 1987-1992-ci illərdə İraq Respublikasında xidməti ezamiyyətdə olmuşdur.

1992-ci ildən Bakı Dövlət Universiteti İlahiyyat fakültəsinin baş müəllimidir.